**AZƏRBAYCAN RESPUBLİKASI**
**İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN**

**İDARƏ HEYƏTİNİN QƏRARI**

**№___________**

**Bakı şəhəri** **“____” _____________20____**

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin Qərarı ilə təsdiq edilmiş bir sıra Komissiyaların ləğvi haqqında

“Səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2006-cı il 25 may tarixli 413 nömrəli, “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli, “Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 20 dekabr tarixli 418 nömrəli, “Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında” 2019-cu il 23 dekabr tarixli 895 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 13 may 2022-ci il tarixli 1677 nömrəli Fərmanından irəli gələrək İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti tərəfindən təsdiq edilmiş bir sıra Komissiyaların ləğvi zərurəti yaranmışdır.

Beləliklə, yuxarıda qeyd olunanları və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”nin 4.5.21-ci yarımbəndini rəhbər tutularaq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**Qərara alır:**

1. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində Vətəndaşların tibbi xidmətlər üçün xarici ölkələrə göndərilməsi üzrə Komissiyanın yaradılmasının, tərkibinin və əsasnaməsinin müzakirəsi və təsdiq edilməsi haqqında” İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 06 mart 2020-ci il tarixli 06 nömrəli Qərarı, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində Hamiləlik, doğuş, zahılıq dövrlərində ana və uşaq ölümü və ağırlaşmış doğuş hallarının təhlili üzrə Komissiyanın yaradılmasının, tərkibinin və əsasnaməsinin müzakirəsi və təsdiq edilməsi haqqında” İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 06 mart 2020-ci il tarixli 07 nömrəli Qərarı, “Vətəndaşların

koxlear implant sistemi və oynaqdaxili endoprotezlərlə təmin edilməsi məsələləri üzrə Komissiyanın yaradılmasının, tərkibinin və əsasnaməsinin təsdiq edilməsi haqqında" İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 20 may 2020-ci il tarixli 14 nömrəli Qərarı, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinə həkim və orta tibb heyətinin işə qəbulu üzrə Müsabiqə Komissiyasının yaradılmasının və əsasnaməsinin təsdiq edilməsi haqqında" İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 12 iyun 2020-ci il tarixli 18 nömrəli Qərarı, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinə həkim və orta tibb heyətinin işə qəbulu üzrə Müsabiqə Komissiyasının tərkibinin formalaşdırılması üçün ehtiyat siyahının təsdiq edilməsi haqqında" İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 12 iyun 2020-ci il tarixli 19 nömrəli Qərarı, "Kardiocərrahiyyə əməliyyatlarının aparılmasına ehtiyacı olan 18 yaşına çatmayan şəxslərin qeydiyyatının aparılması, seçilməsi və hospitallaşdırılması üzrə Komissiyanın yaradılmasının, tərkibinin və əsasnaməsinin təsdiq edilməsi haqqında" İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 18 sentyabr 2020-ci il tarixli 23 nömrəli Qərarı, "B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə Komissiyanın yaradılmasının, tərkibinin və əsasnaməsinin təsdiq edilməsi haqqında" İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 18 sentyabr 2020-ci il tarixli 24 nömrəli Qərarı, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində şəxslərə göstərilən tibbi xidmətlərin təkmilləşdirilməsi və ölüm hallarının təhlili üzrə Komissiyanın yaradılmasının, tərkibinin və Əsasnaməsinin təsdiq edilməsi haqqında" İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 28 yanvar 2021-ci il tarixli 3 nömrəli Qərarı, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində Həkim Məsləhət Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi haqqında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2 iyul 2021-ci il tarixli 15 nömrəli Qərarı ləğv edilsin.

2. Marketinq və ictimaiyyətlə əlaqələr departamenti (A.Əhmədova) bu Qərarın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

3. Agentliyin struktur bölmələrinin, filial rəhbərlərinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin bu Qərarla tanış edilməsi Vətəndaş müraciətləri və sənədlərlə iş departamenti (E.Mikayılov) tərəfindən təmin edilsin.

4. Bu Qərarın icrasına ümumi nəzarət Agentliyin İdarə Heyəti sədrinin müavini Nigar Bayramovaya həvalə edilsin.

**İdarə Heyətinin sədri** ________________ **Zaur Əliyev**

**M.Y.**

**Razılaşdırılmışdır:**

Nigar Bayramova _______________

Aysel İbayeva _______________

İcraçı:

Səmra Zülfiqarova _______________